Təqdimat

# “Kinocizgilər”in ekran aləmi



**Beynəlxalq Muğam Mərkəzində tanınmış yazıçı, kinodramaturq, Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlunun “Kinocizgilər” adlı yeni kitabı təqdim edilib.**

Orxan Fikrətoğlu vaxtilə “Azərbaycanfilm” kinostudiyasının baş redaktoru, Dövlətlərarası MİR Teleşirkətinin direktor müavini, “Mozalan” satirik kinojurnalının direktoru vəzifələrində çalışıb. Onun ssenariləri əsasında “Ümid”, “Solaxay”, “Səs”, “Ağ kətandakı adam”, “Qız qalası”, “Ərazi”, “Yalan”, “Kəpənək”, “Borc” adlı bədii və sənədli filmlər çəkilib. “Xalça nəğməsi” filmi Birinci Beynəlxalq Yalta Kinofestivalında baş mükafata layiq görülüb.

Hazırda Mədəniyyət nazirinin müşaviri olan Orxan Fikrətoğlu, eyni zamanda, Azərbaycan Respublikası Kino Agentliyinin baş direktoru vəzifəsini icra edir. 2016-cı ildə onun “Kinopovestlər”, 2017-ci ildə “Alternativ kino” kitabları çapdan çıxıb. Sənət dalğasına dəstək göstərmək naminə məhsuldar çalışan kino xadiminin bu sahədə təqdirəlayiq işləri var.

“Elm və təhsil” nəşriyyatında çap olunmuş “Kinocizgilər”in təqdimat mərasimində yazarın qələm dostları, kino və ədəbiyyat xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Kitabda Orxan Fikrətoğlunun həm tammetrajlı, həm qısametrajlı bədii və sənədli film ssenariləri, ekran həlli üçün uyğunlaşdırılmış qısa hekayələri və novellaları yer alıb. Geniş oxucu auditoriyası üçün nəzərdə tutulan 500 səhifəlik kitabda müəllifin son illərdə Türkiyədə çəkilib ekranlara çıxan ssenariləri də cəmlənib. Mərasimdə çıxış edənlər bu barədə ətraflı danışıblar. Xatırladılıb ki, Azərbaycanda kino ssenariləri barədə sonuncu kitab keçmiş SSRİ dövründə çap olunan “Rüstəm İbrahimbəyovun kino ssenariləri” olub. Bu baxımdan Orxan Fikrətoğlunun kitabını müasir Azərbaycan kinematoqrafiyasında yenilik kimi qiymətləndirmək olar.




...Tədbirdə Orxan Fikrətoğlunun ssenari müəllifi olduğu “Ərazi” filmi nümayiş etdirilib. Sonda isə müəllif yeni kitabının nüsxələrinə avtoqrafla oxuculara təqdim edib.

***Əli NƏCƏFXANLI***
***XQ***